AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

İLKİN QULİYEV
NİZAMİ BAĞIROV

ÜMMİ İSANIN "MEHRİ VƏ VƏFA" POEMASININ DİLİ

(metodik vəsait)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 sentyabr 2012-ci il tarixli 1502 №-li əmri ilə təsdiq edilmişdir.

Bakı – Mütərcim – 2013

Elmi redaktor: **Vasif Musa oğlu Adilov**
filologiya elmləri namizədi, dosent

Rəyçilər: **İkram Ziyad oğlu Qasımov**
filologiya elmləri doktoru, professor

Eldar Rizvan oğlu Piriyev
filologiya elmlər doktoru, professor

Dürdanə Tofiq qızı Əliyeva
filologiya elmləri namizədi, dosent

Təranə Çərkəz qızı Şükürova
filologiya elmləri namizədi, dosent

İlkin Quliyev, Nizami Bağırov. Ümmi İsanın "Mehri və Vəfa" poemasının dili *(metodik vəsait).* – Bakı: Mütərcim, 2013. – 48 səh.

Metodik vəsaitdə XI əsr Azərbaycan şairi Ümmi İsanın "Mehri və Vəfa" poemasının dilinin morfoloji quruluşu araşdırılmış, yeri gəldikcə digər anadilli mətnlərlə qarşılaşdırmalar aparılmış, əsərin dilinin müasir Azərbaycan dili ilə oxşar və fərqli xüsusiyyətləri aşkara çıxarılmışdır. Vəsait Azərbaycan dilinin tarixi qrammatikasını öyrənənlər və bu sahədə araşdırma aparan gənc tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

Q $\frac{4310020000}{026}$ 14-13

© İlkin Quliyev, Nizami Bağırov, 2013

Ön söz

Azərbaycan ədəbi dilinin qrammatik quruluşunu tarixi inkişafda öyrənmək baxımından qədim və orta əsrlərə aid yazılı mətnlər zəngin material verir. XI əsrdə yaşadığı və yazıb-yaratdığı ehtimal olunan Azərbaycan şairi Ümmi İsanın "Mehri və Vəfa" poemasının dilinin öyrənilməsi də bu cəhətdən aktuallıq kəsb edir. Poema dilinin sadə və anlaşıqlı olması ilə seçilir ki, bu da onun folklor, canlı danışıq dili əsasında yazılmasından irəli gəlir. "Kitabi-Dədə Qorqud" və "Dastani-Əhməd Hərami"yə nisbətən "Mehri və Vəfa" poeması daha sadə dildə yazılmışdır və müasir oxucunun anlaya biləcəyi şəkildədir. Poemanın dilində türk mənşəli sözlərin üstünlük təşkil etməsi və bununla yanaşı, qrammatik vahidlərin müasir Azərbaycan dilindəkindən cüzi şəkildə fərqlənməsi onun kamil bir sənət nümunəsi olduğunu göstərir.

Poema Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xətti ilə iki dəfə (2001, 2005-ci illərdə) nəşr edilmişdir. Birinci nəşr kiril əlifbası ilə, ikinci nəşr isə latın qrafikalı əlifba ilə çap olunmuş, eyni zamanda mətn ərəb əlifbası ilə də verilmişdir.

Prof. Q.Kazımov özünün "Seçilmiş əsərləri"ndə (Bakı, 2010, I c.) poemanın dilini "Dastani-Əhməd Hərami"nin dili ilə müqayisəli şəkildə təhlil etmiş, leksik və morfoloji quruluşu haqqında məlumat verərək, onun, əslində, hansı dövrün məhsulu olduğunu müəyyənləşdirməyə çalışmış, bəzi qaranlıq məsələlərə aydınlıq gətirmişdir. İkinci nəşri ərsəyə gətirən – elmi-tənqidi mətni hazırlayıb çağdaş əlifbaya çevirən A.Şərifova "Ümmi İsanın "Mehri və Vəfa" məsnəvisinin paleoqrafik, orfoqrafik və leksikoloji tədqiqi" mövzusunda dissertasiya yazmışdır. Dissertasiyada qoyulan məsələlər və onların həlli əsərin dili və yazıldığı dövr haqqında tam təsəvvür yaradır.

Bu metodik vəsaitdə Ümmi İsanın "Mehri və Vəfa" poemasının dilinin morfoloji quruluşu sistemli şəkildə öyrənilir, ayrı-ayrı morfoloji vahidlər, əsas və köməkçi nitq hissələri ən incə detal-

larına qədər nəzərdən keçirilir və yeri gəldikcə digər yazılı mətnlərlə qarşılaşdırmalar aparılır.

Bu vəsaitin ali məktəblərin filoloji fakültələrində tədris olunan "Azərbaycan dilinin tarixi qrammatikası" fənninin öyrənilməsində faydalı olacağı qənaətindəyik.

Vəsaitin sonunda mövzuların daha dərindən mənimsənilməsi üçün sual və tapşırıqlar da verilmişdir.

Müəlliflərdən

ƏSAS NİTQ HİSSƏLƏRİ

İSİM.
İSMİN QURULUŞCA NÖVLƏRİ

Orta yüzilliklərdə Azərbaycan dilində yazılmış bütün abidələrdə olduğu kimi, İsanın "Mehri və Vəfa" əsərinin dilinin lüğət tərkibinin əsas hissəsini isimlər təşkil edir. Əsərin dilindəki isimlər konkret və abstrakt, xüsusi və ümumi, təklik və topluluq bildirməklə müasir Azərbaycan dilindəkindən əsaslı şəkildə fərqlənmir; məs.: *Mehri, Vəfa, İsa, Keyqubad, uçmaq, ün, düş, dirilik, el, xalq, davar, qul, qaravaş, tanuq, tanrı, bağban, elçi, köy, sultan, xan, ət, bəy, ətməg, at, barmağ, küp, altun, pul, uyxu, qapu, quş, kişi və* s.

Poemanın dilində ismin quruluşca üç növünə - ***sadə, düzəltmə*** və ***mürəkkəb*** növünə rast gəlinir. Bunlar özünü aşağıdakı şəkildə göstərir:

1. Sadə isimlər*;** məs.: Yapdı bir uca ***saray, işrət edər[1] (16); Çünki anda akça ***pulu*** buldular (16); Aldı əlinə ***əyaq*** gəldi ilərü (57); Ol ***qılıcı*** sundu aldı ***əlinə*** (63); ***Gül budaqda*** ikən, gərək ***bülbülə*** (63) və s.

2. Düzəltmə isimlər. Bunlar da iki yerə bölünür: ***adlardan düzələn isimlər, feldən düzələn isimlər.***

Adlardan düzələn isimlər. "Mehri və Vəfa" poemasında ***adlardan isim düzəldən şəkilçilər*** aşağıdakılardır:

-çı, -çi. Azərbaycan, ərəb, fars mənşəli leksik vahidlərdən peşə, sənət, adət, xasiyyət, keyfiyyət və s. məna çalarları ifadə edən düzəltmə isimlər əmələ gətirən bu şəkilçi dilimizin bütün tarixi inkişaf mərhələlərində məhsuldar olmuşdur. Poemanın dilində də öz məhsuldarlığı ilə diqqət çəkir; məs.: Girdi bir ***cüftçinin*** anda əlinə (24); ***Qapuçılar*** həp dururdu gördülər (41); ***Elçilər*** saldı o dəm qardaşına (75) və s.

---

[1] İsa. Mehri və Vəfa (Tərtib edən A.Şərifova), Bakı, 2005, 263 s. (Əsərdən verilən nümunələrin hamısı bu mənbədən götürülmüşdür, sadəcə səhifəsini göstərməklə kifayətlənəcəyik.)

-ban. Bağban oğluna ismarlayım atı (49); ***Bağban*** ilə Vəfa döndülər gerü (41)

-ça. Bu şəkilçi vasitəsilə kiçiltmə mənalı isimlər düzəlir; məs.: Bir əcaib ***baxçası*** vardur anın, Yokdur anın ***bakçası*** tək kimsənin (27).

-laq. Bu şəkilçi yer, məkan bildirən isimlər əmələ gətirir. Məs.: Onların ***avlaqı*** idi ol pinar (53).

-zadə. Öylə dedi, ***şahzadə*** dəpdi atı (32);

-i. Başladı bir ***türki*** Mehri üstünə (46)

-daş. Ata-ana həm ***qarındaşımdurur*** (33)

-lıq. Tarixən qədim olan bu morfem dilimizin bütün inkişaf dövrlərində öz məhsuldarlığı ilə seçilmişdir. Bu şəkilçilər vasitəsi ilə sadə isim və sifətlərdən, say və əvəzliklərdən keyfiyyət, xasiyyət, vəzifə, peşə, hal-vəziyyət, yer və əşya adı ifadə edən isimlər düzəlir. Məs.: Girdi şəhr içində ***çərçilik*** edər (61); Zülmilə ***sultanlıq*** olmaz Keyqubad (75); Nəfəsi ənbər, yüzü ***dirilik*** sayı (20); Der ki, ***doğruluğunu*** bildirəyim (70); Bunların ***qandalığını*** bilmədim (52); Məmləkətdə ***padşahlıq*** qılasız (14) və s.

"Mehri və Vəfa" poemasının dilində bir sıra hallarda ***-lıq*** şəkilçisi ***-maq, -mək*** morfemlərindən sonra işlənir; məs.: Talibəm yavlaq bunu ***görməkligə***, Can verim xidmətinə ***irməkligə*** (70) və s. Bu xüsusiyyət ***(-maq+lıq)*** XII-XIV yüzillik anadilli abidələrimizdən olan Qul Əlinin "Qisseyi Yusif" və S.Fəqihin "Yusif və Züleyxa" poemalarının dili üçün də xarakterikdir. Məs.: Ol Misirdə ***durmaqlığa*** boyun verdi[2], Verdi kim, kəhəl ***olmaqlıq*** nişə.[3]

Müasir Azərbaycan ədəbi dilində öz işləkliyini itirən bu forma hal-hazırda Azərbaycanın Naxçıvan qrupu dialekt və şivələrində geniş işlənmə tezliyinə malikdir. Məs.: Çox ***yatmaxlıx*** zərərdi adama.[4]

---

[2] Bax. Quliyev İ. Qul Əlinin "Qisseyi-Yusif" poemasının dili. Metodik vəsait. Bakı, Mütərcim, 2011, s.19

[3] Suli Fəqih. Yusif və Züleyxa. (Tərtib edən: Z.T.Hacıyeva). Bakı, 1991, s.43

[4] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, Bakı, 1962, s. 111

Adlardan isim düzəldən şəkilçilərdən bəhs edərkən alınma şəkilçilərin rolunu da qeyd etmək lazımdır. Tarixən ərəb və fars dillərindən keçən sözlərin tərkibində həmin dillərə məxsus şəkilçilər də leksik vahidlərlə birlikdə dilimizə daxil olmuşdur. Poemanın dilində də alınma şəkilçilərlə düzələn sözlərə rast gəlinir; məs.: ***-xana*:** Sənin olsun cümlə bu ***gəncxana*** (35); ***-üstan*:** Çevrə yanı xoş ***gülüstan***, su aka (68); ***-iyyat*:** Batil oldi yenə cadu, ***sehriyyat*** (53).

Feldən düzələn isimlər. "Mehri və Vəfa" poemasının dilində feldən düzələn isimlər azlıq təşkil edir. Feldən isim düzəldən şəkilçilər aşağıdakılardır:

-gi, -gü. Çağdaş Azərbaycan dilində işlənən qeyri-məhsuldar şəkilçilərdəndir. Poemanın dilində bir sözün tərkibində bu şəkilçiyə təsadüf etdik. Məs.: Ey əcəb, ol ***sevgili*** yarım qanı (38). Ə.Dəmirçizadə "Kitabi-Dədə Qorqud" dastanlarının dilində də bu şəkilçi ilə ancaq bir neçə feldən isim düzəldiyini təsbit etmişdir.[5]

-üg. Şahzadə ***itügün*** vardur dedi (32).

-da. Gəl gedəlüm, uyma uşbu ***sevdaya*** (35).

-aq. Sən hurisən, sənə uçmaqdır ***turaq*** (42); Çəkdi ***bıçaq*** Vəfayı boğazladı (29);

-üt. Vəzir aydır: Gir ***ögütlə*** sən onı (51).

-q (-k, -ğ, -g). Bən yolumda doğruyam tanrı ***tanık*** (64); ***Diləgün*** qıldı qəbul ol biniyaz (34); Başlasın kəndi dügün ***yarağına*** (45); Dinimizin *dirəgidir* dört imam (12).

-u, -ü. Fel köklərinə qoşularaq poemanın dilində hal-vəziyyət mənalarını ifadə edən isimlər əmələ gətirir; məs.: Mehri aydır: ***Qorxu*** cadudandurur (50).

-qu, -xu. Uyqu basdı ikisi də yatdılar (53); Mehri oyandı ***uyxudan***, açdı gözün (54); Dünya xalqı vardı qamu ***uyquya*** (57);

-miş. Biri aydır: Hər kim gözsiz isə, Görəsiydi gözi, ***yemişim*** yesə (23).

3. Mürəkkəb isimlər. Azərbaycan dilinin tarixi inkişafının məhsulu olan mürəkkəb isimləri poemanın dilində aşağıdakı şəkildə müşahidə etdik.

---

[5] Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili, Bakı, 1959, səh.70

a) *Yaxın mənalı isimlərin birləşməsi ilə;* məs.: ***Qul-qaravaş,*** çadrü xeyməvü, ***El-vilayət,*** bənim idi tacü taxt (71); ***Ata-ana*** həm qarındaşımdurur (33); ***Var-malını*** xərcə süzdüm bilmədim (16) və s.

b) *Müxtəlif mənalı isimlərin birləşməsi ilə*; Məs.: Qarşu ***firaqnamələrin*** söylədi (35); Tələti rövşən Cahangir ***şahsüvar*** (13) və s.

İsmin hal kateqoriyası. Poemanın dilində hal kateqoriyası müasir Azərbaycan dili ilə müqayisədə bəzi fərqli cəhətlərlə diqqət çəkir. Bu fərqlər morfoloji göstəricilərdə olmayıb, halların birinin digərinin yerində işlənməsində özünü göstərir. İsmin hallarına sıra ilə nəzər salaq.

Adlıq hal isimlərin başlanğıc formasıdır və tarixən heç bir morfoloji əlaməti olmamışdır; məs.: Bakdı gördü ***Mehri*** qarşudan gəlür (46); Bir ***qaravaş*** çıkdı gördi oğlanı (43) və s.

Yiyəlik hal -ın, -in, -ım şəkilçisinin köməyi ilə düzəlir; məs.: Ol ***ağacın*** kölgəsinə gəldilər (53); Bu, ***mənim*** müşkil işim anda yetür (42); Saçdi bir həmyanı ***Mehrin*** üstünə (56); Doyamazam ***eşqinin*** qovğasına (66); Eşit imdi ***Tanrının*** hökmü necə? (66) və s.

Yönlük halın göstəricisi ***-a, -ə*** şəkilçisidir. Razuyuz ol ***bizə*** sultanlıq edə (67); Yazdı surətini tikdi bir ***bezə*** (68); Dutdular, ***zindana*** saldılar anı (69); ***Bana*** aydır; Bir qaç əyaq iç şərab (72) və s. Əsərin dilində müasir dövr üçün arxaikləşmiş ***-ra*** şəkilçisinə də təsadüf edilir; məs.: Çəkdi qılıc, öylə çaldı ***ortara,*** Eylədi ol cadını iki para (52).

Müasir Azərbaycan dili ilə müqayisədə ***təsirlik halın*** morfoloji əlamətləri, demək olar ki, fərqlənmir, sadəcə, saitlə bitən sözlərdən sonra ***-yı***[4] şəkilçisi geniş işləkliyə malikdir; məs.: ***Surəti*** görüb niyə ah etdiniz (70); Dört yana aradı qamu ***yolları***, ***Dərələri, təpələri, dağları*** (51); Hər ***xəzniyi*** açuban girdilər (22); İlla Mehri bir ***qapuyu*** açmadı (22); ***Mehriyi*** küpə qoyuban gizlədi (29) və s.

Təsirlik halın ***-yi, -yı*** şəkilçisi digər ədəbi-bədii dil nümunələrimizdə aktiv işlənmişdir; məs.: Qorqusundan ***qamçıyı*** yerə atər. Yusif andə ***qamçıyı*** atmiyə idi[6]; Özünə bir ***guşəyi*** qılmış məkan[7] və s.

---

[6] Suli Fəqih. Yusif və Züleyxa (tərtib edən: Z.T.Hacıyeva), Bakı, 1991, s.114

Uzun müddət ədəbi-bədii dilimizdə işlək olan bu forma son dövrlərdə ədəbi dilimizdən çıxmış və öz yerini ***-nı***[4] şəkilçisinə vermişsə də, varlığını dialekt və şivələrimizdə qoruyub saxlaya bilmişdir.[8]

Yerlik və ***çıxışlıq*** halın morfoloji göstəricilərində ***(-da², -dan²)*** heç bir dəyişiklik müşahidə olunmur. Məs: Gördi xalq ***yollarda*** həp gəlür, gedir (51); Orda, ***yakında*** dəxi bir köy ulu (53); Kəndüyi burakdı ***taxtından*** yerə (51); Cümlə ***işdən*** anı bizar eylədi (66); ***Səhralarda*** dün-gün fəryad edər (66) və s.

Poemanın dilində ismin halları ilə bağlı maraqlı cəhətlərdən biri də halların bir-birini əvəz etməsi, yəni bir halın digərinin məqamında işlənməsidir. Məs.: *Adlıq halın təsirlik hal məqamında işlənməsi*: Çəkdi Vəfa ***Mehri*** aldı yanına (53); Uyqundan oyandı, ***Mehri*** bulmadı (54); *Yerlik halın yönlük hal məqamında işlənməsi:* Bu mənim müşkil işim ***anda*** yetür (42); Rum elindən ***bunda*** irib gəlmişəm (42); *Yiyəlik halın yönlük hal məqamında işlənməsi:* Söylər ikən ***ikisin*** sehr eylədi (28); *Təsirlik halın yönlük hal məqamında işlənməsi:* Deyəsən, məşuq ***yarı*** qıldı məkir (43); *Yönlük halın çıxışlıq hal məqamında işlənməsi:* ***Sərrafa*** sordu ki, bu nə kişidir? (63); Getdi Vəfa Mehriylə yeyir, içir, Bir zaman çün bunun ***üstünə*** keçir (22); *Yönlük halın yerlik hal məqamında işlənməsi:* Bəgligimə məşğul idim ***vaxtıma*** (71) və s.

Hal əvəzlənmələri "Dastani-Əhməd Hərami", "Kitabi-Dədə Qorqud" və "Əsrarnamə"nin dili üçün də xarakterikdir.[9]

---

[7] Bax. Xəlilov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, s.69

[8] Bax. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, Bakı, 1962, s.86; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, s.76.; Şirəliyev M. Bakı dialekti, 1957, s.110

[9] Məmmədov V. "Dastani-Əhməd Hərami" poemasının dili və üslubu, Bakı, 2001, s.80; Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, 2003, s.490; Xəlilov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, s. 62-63

SİFƏT

Poemanın dilində işlənən sifətlər lüğəvi mənası və sintaktik vəzifəsi baxımından rəngarəng və zəngindir. Əsərin dilindəki sifətlərin böyük əksəriyyəti heç bir dəyişikliyə məruz qalmadan çağdaş dövrdə də işlənməkdədir. Məs.: *ağ, qara, yaşıl, boz, nazik, gözəl, ulu, saru, dar, yorqa* və s.

Poemanın dilində işlənən sifətləri quruluşca üç yerə ayırmaq olar: ***1. Sadə sifətlət; 2. Düzəltmə sifətlər; 3. Mürəkkəb sifətlər.***

1. Sadə sifətlər. Ağ yüzündə ol ***qara*** bənlər ki var (20); Yanağın qızıldurur, həm yüzün ***ağ*** (42); Gördilər üç küp durar, biri ***ulı*** (15); Ol ***kiçi*** oğlanın adıdır Vəfa (15); ***Boz*** ata binmiş, ***yaşıl*** geymiş ey yar (33); Boyadı Mehri tonın ***qaraya*** (31); Əmruda aydır: Neçün bənizin ***saru*** (43); Gördi kim, Vafa dəxi geymiş ***siyah*** (48); Hər birinin yüzi ***ak***, gözi ***qarə*** (49) və s.

2. Düzəltmə sifətlər. Əsərin dilində hansı nitq hissəsindən yaranmasına görə düzəltmə sifətlər iki yerə bölünür: ***isimdən düzələn sifətlər, feldən düzələn sifətlər***.

İsimdən düzələn sifətlər aşağıdakı şəkilçilər vasitəsi ilə düzəlir:

-lı. Tarixən qədim olan bu leksik şəkilçi həm türk, həm də ərəb, fars mənşəli isimlərə artırılaraq müxtəlif mənalı sifətlər əmələ gətirir. Məs.: Bir neçə *dürlü* zaman görmüş idi (13); Bəxti ***qutlu***, taleyi firuzmənənd (14); ***Yaşlı*** gözüm, bir dəm əksilsün yaşın (47) və s.

-sız. Bütün dövrlərdə Azərbaycan ədəbi dilində məhsuldar olan bu şəkilçi poemanın dilində də öz işləkliyi ilə seçilir, adlara artılaraq əlamət və keyfiyyətin yox olduğunu bildirir. Daha dəqiq desək, ***-li*** şəkilçisinin antonimi kimi meydana çıxır. Məs.: Biri aydır: Hər kim ola ***əlsiz*** isə, Biri aydır: Hər kim ol ***gözsüz*** isə (23); Assısı yok gövdədə ***ətsiz*** canın (73) və s.

-kar. Fərhad oldum, ol ***Şirinkarım*** qanı (38).

-dar. Ol bənim yaru ***vəfadarım*** qanı (38).

bi-. Fars dilində prefiks yerində işlənən ***bi-*** Azərbaycan dilində ***-siz*** şəkilçisinin tam qarşılığıdır. Azərbaycan dilinə hələ çox qədim dövrlərdən keçə bilmişdir.[10] Poemanın dilində bu şəkilçi ərəb, fars mənşəli sözlərin əvvəlində gəlir; Məs.: Kim gətirdi bəni bunda ***bigünah?*** (29); Qalasıyuz munda böylə ***biçarə*** (52); Əl götürdi dedi kim, ey ***biniyaz***. (34).

Feldən düzələn sifətlər. Müasir Azərbaycan dili və orta yüzilliklərə aid abidələrin dili ilə müqayisədə İsanın "Mehri və Vəfa" poemasında fellərdən düzələn sifətlər azlıq təşkil edir və aşağıdakı şəkilçilər vasitəsi ilə düzəlir:

-ru. Qeyri-məhsuldar şəkilçidir və qədim tarixə malikdir. Məs.: Der: ilahi, ***doğru*** yol göstər bana (18); Zira can vermək gərək ***doğru*** yara (30) və s.

-ıq (-q, -k). Girdi yola, baş ***açıq***, yalın ayaq (52); İstər anda bir ***sınıq*** təblə bular (61); ***Əsruk*** ol məhəllədən keçər idi (64); ***Savuk*** dəmir dögməgin assısı yok (74).

-ici. Bir ləin qarıdır, adəm ***düzici***, İki dostı bir-birindən ***üzici*** (61).

-u, -ü. Omonimlik xüsusiyyətinə malik olan ***-u, -ü*** şəkilçisi fellərdən isim düzəltdiyi kimi, əlamət, keyfiyyət bildirən sifətlər də əmələ gətirir. Məs.: Bulasın qırk hücrə ***tolu*** küp mal (18); ***Dolu*** ağaclar içi dürlü yemiş (23); Ey ***ölüyü*** diri qılan müstəan (34).

-qun, -ğun, -gün. Ol meşədə ***itgün*** oldu ol şikar (19) və s.

3. Mürəkkəb sifətlər. Poemanın dilində mürəkkəb sifətlər aşağıdakı üsullarla yaranır:

a) *Əks mənalı sifətlərin birləşməsi ilə*; məs.: Qara geydi ***ulu-kiçi*** xassü-am (31);

b) *Düzəltmə sifətlərin təkrarı ilə*; məs.: ***Dürlü-dürlü*** meyvələr içi tolu (45);

c) *İşarə əvəzliklərinin təkrarı ilə*; məs.: ***Böylə-böylə*** fitnəsi çokdur anun (61);

d) *Iki sadə ismin birləşməsi ilə*; məs.: Ol yüzi ***günəşsifət***, alnı qəmər (38); Bir gözəl məhbub xud ***sahibcəmal*** (18) və s.

---

[10] Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962, s.86

Sifətin dərəcələri. Sifəti digər nitq hissələrindən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun dərəcələrinin olmasıdır. Sifətin dərəcələri uzun tarixi prosesin məhsuludur. Dərəcə əlamətini yaradan morfemlər və leksik vahidlər zaman keçdikcə konkretləşmiş və dəqiqləşmişdir.

Poemanın dilində adi və çoxaltma dərəcəsində olan sifətlərə rast gəlinsə də, azaltma dərəcəsində olan sifətlərə təsadüf edilmir.

Adi dərəcə. Heç bir morfoloji əlaməti yoxdur. Digər dərəcələr üçün meyar rolunu oynayır. Adi dərəcə bütün əsli-sadə və düzəltmə sifətləri əhatə edir. Məs.: *nəfis, nazik, dişi, yaşlı, diri, ağ, qara, ulu, kiçi, qutlu, boz, saru, dar* və s.

Çoxaltma dərəcəsi. Bu dərəcə poemanın dilində öz ifadəsini ***-rək, -rəg*** şəkilçisində tapmışdır. Bu şəkilçi haqqında türkoloji dilçilikdə müxtəlif fikirlər vardır. Ə.Dəmirçizadə ***-raq, -rək*** şəkilçisini azaltma dərəcəsinin əlaməti kimi göstərmişdir.[11] M.Şirəliyev, M.Hüseynzadə, Ş.Xəliliov və b. ***-raq, -rək*** şəkilçisinin müqayisə məzmunu yaratdığını qeyd etmişlər.[12] H.Mirzəzadə tarixi aspektdə yanaşaraq, ***-raq, -rə****k* şəkilçisini sifətin çoxaltma dərəcəsinin morfoloji əlaməti hesab etmişdir.[13] Poemanın dilində də eyni halla qarşılaşırıq; məs.: Ayıtdı: ***Yegrəg*** oldur bunu salam (17); ***Yekrək*** oldur uşbu mülki tərk edəm (17).

Müasir Azərbaycan dilində sifətin çoxaltma dərəcəsini düzəltmək üçün fonosintetik və sintaktik üsuldan istifadə olunur. Poemanın dilində fonosintetik üsulla coxaltma dərəcəsinin düzəlməsində yalnız ***p*** səsinin rolunu görmək olur; məs.: Zəngilərdi anun içi ***toptolu*** (53): Gördü bir qələ sokaklar ***toptolu*** (19). Qeyd edək ki, müasir dilimizdə də sifətin çoxaltma dərəcəsini yaratmaqda ***p*** səsi digərlərinə görə daha aktivdir; məs.: *qıpqırmızı, sapsarı, ağappaq, qapqara, bapbalaca* və s.

---

[11]Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili, Bakı, 1959, s.75

[12] Şirəliyev M. Azərbaycan dialektologiyasınlın əsasları, 1968, s.179; Hüseynzadə M. Müasir Azərbaycan dili (morfologiya), Bakı, 1974, s.101; Xəlilov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, s. 85;

[13]Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962, s.94

Çoxaltma dərəcəsinin sintaktik üsulla düzəlməsi adi dərəcədə olan sifətlərin əvvəlinə ***dəxi, çox (çok)***, ***qatı*** sözlərindən birini artırmaqla olur; məs.: İrəsin bir qalaya ki, ***çox ulu*** (32); Tonı nərgizdən, ***dəxi nazik*** dutar (20); ***Qatı*** zənbaz idi, həm dünyası pul.

SAY

Türk dillərində qədim tarixə malik olan nitq hissələrindən biri də saydır. Poemanın dilində sayın mənaca aşağıdakı növləri müşahidə olunur: ***miqdar (müəyyən və qeyri-müəyyən miqdar) sayları, sıra sayları.***

Miqdar sayları poemanın dilində yetərincədir, müxtəlif situasiyaları lazımi şəkildə təsvir etmək üçün həm adi, həm də sakramental sayların çox işlənməsinə ehtiyac duyulmuşdur. Miqdar sayları iki yerə bölünür:

1. Müəyyən miqdar sayları. Bir sıra fonetik fərqlər nəzərə alınmazsa, "Mehri və Vəfa" poemasının dilində işlənən müəyyən miqdar sayları öz leksik-qrammatik xüsusiyyətlərinə görə müasir dilimizdəki ilə eynidir. Məs.: Dinimizin dirəgidir ***dört*** imam (21); ***Üç*** əyalı var idi, cümləsi ər (13); Satdı ol yüzügünü ***iki*** altuna (17); Bulasın ***qırk*** hücrə tolu küp mal (18); ***On bir*** ay tamam səyyahlıq eylədi (36); Hər birin ***bir*** altuna aldım satun (45); Sanki ***yüz bin*** can qarışdı canına (53); Sərraf aydır: ***Əlli*** altun al sana (59) və s.

Müasir Azərbaycan dilində müəyyən miqdar saylarından sonra gələn isimlər ədəbi dil normalarına görə yalnız təkdə olur, yəni ***-lar, -lər*** şəkilçisini qəbul etmir. Poemanın dilini araşdırarkən bunun əksini müşahidə etdik, yəni miqdar saylarından sonra gələn isim cəm şəkilçisini qəbul edir. Məs.: ***İki həsrətlər*** belə qovuşdular (48). Bu hal digər ədəbi-bədii nümunələrimizdə də təsbit olunmuşdur; məs.: ***On iki bin ərlər*** cümlə atdan düşdi[14]; Görməz oldu ***iki gözlərüm*** bənim[15] və s.

---

[14] Quliyev İ. Qul Əlinin "Qisseyi-Yusif" poemasının dili, Bakı, 2011, s.9
[15] Suli Fəqih. Yusif və Züleyxa (tərtib edən: Z.T.Hacıyeva), Bakı, 1991, s.160

Poemada müəyyən miqdar sayları substantivləşərək isim vəzifəsində çıxış edir. Məs.: Qaldılar ol eldə ***ikisi*** böylə, Dutdular ol taxtı ***ikisi*** böylə (75).

"Mehri və Vəfa poemasının dilində miqdar sayları ilə isimlər arasına daxil olan ***şələ, rükət, küp*** numerativ sözlərini müşahidə etdik. Məs.: Gündə ilət nehrə ***bir şələ yemiş*** (40); ***İki rükət*** ol nəbi qıldı ***namaz*** (34); Diyə verdüm ***bir küp altun*** sana (17).

2. *Qeyri-müəyyən miqdar sayları.* Əşyanın qeyri-müəyyən miqdarını, kəmiyyətini bildirən sayların quruluşuna görə iki növünə rast gəlinir: ***1. Sadə qeyri-müəyyən miqdar sayları; 2. Mürəkkəb qeyri-müəyyən miqdar sayları.***

1. Sadə qeyri-müəyyən miqdar sayları çok, az, bol sözlərindən ibarətdir; məs.: Kiminə ***az***, kiminə ol ***bol*** verür (12); Uşbu işdən sən çəkərsən ***çox*** cəfa (18); Dünyada bu əhvalı ***çoklar*** edər (16).

2. Mürəkkəb qeyri-müəyyən miqdar sayları aşağıdakı üsullarla düzəlir:

a) Çok *sayının təkrarı ilə*; məs.: Biz bu işdən çəkərüz ***çok-çok*** cəfa (23);

b) Bir *sayı ilə* ***neçə, qaç*** *sözlərinin yanaşması ilə*; məs.**: *Bir neçə*** əyyam keçürdü ruzigar (13); ***Bir neçə*** gün durmadı getdi qatı (32); ***Bir qaç*** akça çikarub verdi ana (32); ***Bir qaç*** akça verdi ana köy bəgi (24);

c) *Müəyyən miqdar saylarının birləşməsi yolu ilə*; məs.: ***Bir-iki*** gün yemiş iltürdi sizə (51); Su yukarı ***bir-iki*** gün səfər et (18);

ç) *İşarə əvəzliklərinə* ***-ca*** *və* ***qədər*** *qoşmasının artırılması ilə*; məs.: ***Anca*** yalvardum, yalvardum, aman verdi bana (73); Hər biriniz çəkdiniz ***bunca*** əmək (74); ***Ol qədər*** ilətdilər şamüşərab (49).

Sıra sayları. Poemanın dilində ***sıra saylarına*** nadir halda təsadüf edilir; məs.: ***Ortancı*** qardaşı ayıtdı sultana (31); Tapşurun ***ortancı*** oğlana onı (16). Əsərdə ərəb mənşəli ***əvvəl*** sözü də sıra sayı məqamında işlənir; məs.: ***Əvvəl*** oldur, kimsənədən doğmadı (12) və s.

ƏVƏZLİK

Öz qədimliyi ilə seçilən qrammatik vahidlərdən biri də əvəzlikdir. Bu qrammatik kateqoriya uzun tarixi inkişaf prosesi nəticəsində məna və formaca dəqiqləşmiş, sabitləşmiş və dildə yeni keyfiyyətlər qazanmışdır. Araşdırma zamanı poemanın dilində əvəzliyinlərin aşağıdakı məna növlərini qeydə aldıq:

Şəxs əvəzlikləri. **Po**emanın üzərində aparılan araşdırmalar göstərir ki, şəxs əvəzlikləri məna və vəzifəsinə görə hazırkı dövrlə müqayisədə böyük dəyişikliyə məruz qalmamışdır.

Poemanın dilində birinci şəxsin təki iki variantda – ***mən*** və ***bən*** variantlarında işlənmişdir. Məs.: Dedi kim, əcəb görümmi ***mən*** anı (40); ***Bən*** dünyadan edicəygin güzər (14); ***Mənə*** ol bir yer edəsiz məqqər (14); Mehri aydır: Çün ***bəni*** sordun ***bən***ə (21); De ***bənim*** əhvalımı qulağına (42); Bu ***mənim*** müşkül işim anda yetür (42); Bir yıl möhlət alub, aldatdı ***məni***, Aytdı kim bu vədiyə aldır ***bəni*** (71); Ol ki ***məndən*** vəh edərsən, ***məndə*** yok (64) və s. Birinci şəxsin cəmi müasir dildəkindən fərqlənmir; məs.: ***Biz*** bu işdən çəkərüz çok-çok cəfa (23); Bitmiş anda, bənzəməz hərgiz ***bizə*** (23); Vəfa aydır: ***Bizi*** munda kim görür (50); Kim ***bizüm*** əlimizə girdi şikar (54); Mehrə ilətin qalmasın ***bizdən*** gilə (45).

Müasir Azərbaycan dilində olduğu kimi, abidənin dilində də ikinci şəxsin təki öz ifadəsini ***sən,*** cəmi isə ***siz*** leksik vahidində tapır. Məs.: ***Sən*** hurisən, ***sənə*** uçmaqdur turaq (42); Aytdı: Yigit, ***sənin*** adundur Vəfa (17); Bən gətürdüm kim, ***səni*** verim buna (29); ***Səndən*** ayruq degiləm, sakla bəni (60); Dedi kim yasını dutursuz ***sız*** anın (40); Bir-iki gün yemiş iltürdi ***sizə*** (51).

Üçüncü şəxsin təki poemanın dilində ***ol*** (hallanarkən ***ana, anın*** və s.) formasında özünü göstərir. Məs.: Hillə deməzlərmi, ***ol*** uçmaqdu var (24); ***Ol*** müqimdir, gögü yerdən akmadı, ***Ol*** əvvəldir, ortağı yokdur anın. (12) və s. Bundan başqa, poemanın dilində bir nümunədə üçüncü şəxsin təkini ***o*** şəklində müşahidə etdik: Məşgul olıcaq ***o***, sehrə ay yarı, Mat olurdu ol elin sahirləri. (26) və s. Abidənin dilində üçüncü şəxsin təkində olan əvəzlik hallanarkən

o - a əvəzlənməsi baş verir. Məs.: İki əlini saldı ***anın*** qoynuna (22); Gördi ***anın*** içi baxça imiş (22) və s. Bəzən də müasir dilimizdə olduğu kimi işlənir; məs.: ***Onu*** sultanın kiçi oğluna verin (15); Şah dayəsini dəxi həm ***ona*** verdi (30) və s. Üçüncü şəxsin cəmi poemanın dilində özünü iki fonetik variantda (***onlar, anlar***) göstərir. Məs.: ***Anlar*** aydır: Ey gözəllər sultanı (75); Sordu Mehri ***onlara*** uşbu işi (70) və s.

Abidənin dilində nəzəri cəlb edən əsas xüsusiyyətlərdən biri də hər üç şəxsin təkində olan şəxs əvəzliklərinin hallanarkən *sağır nunla* işlənməsidir; məs.: Uşbu kişilər güc eylədi ***mana*** (73); Anca yalvardum, aman verdi ***bana*** (73); Dəxi artuq bu ***mana*** cəfa qıla (54); Getmə ayruq, bən ata olum ***sana*** (39); Dərviş istər bir qaçın ***ana*** suna (27); Borclu görsə, həm ***anun*** borcun verür (16); Kim ***anun*** ay yüzüni görəyim (43) və s. Bu xüsusiyyət müasir Azərbaycan ədəbi dilində olmadığı halda, bəzi dialekt və şivələrimizdə qalmaqdadır.

Qayıdış əvəzlikləri. "Mehri və Vəfa"nın dilində qayıdış çalarını ***öz*** və ***kəndü*** sözləri yaradır. Məs.: ***Öz-özünə*** bir neçə dərc eylədi (17); Qovğadan ***özümü*** əmin eyləyəm (29); ***Kənduyi*** xirqə içində gizlədi (35); Vəfa bilir ***kəndünün*** halı necə (41) və s. Bəzən bu iki söz birləşərək, mürəkkəb söz şəklində işlənir. Məs.: Gög bəzədi yulduzı ***kəndözinə*** (57); Yenə qıla ***kəndözün*** günəş nihan (65) və s.

İşarə əvəzlikləri. Əsərin dilində işlənmə tezliyi ilə seçilən əvəzliklərdən biri də işarə əvəzliklərdir. İşarə əvəzlikləri aşağıdakılardır:

Bu. Çox işlənən işarə əvəzliyidir; məs.: Vəzir aydır: Biliniz ***bu*** hikməti (15); Dünyada ***bu*** əhvalı çoklar edər (16); Vəfa aydır: ***Bunı*** aç görəyim (22); Gətürrəm bir gün dəxi ***bunı*** ələ (22) və s. ***Bu*** əvəzliyi cəm şəkilçisi qəbul edərkən bəzi hallarda bitişdirici ***-n*** samiti düşür ki, bu da sırf danışıq dili xüsusiyyətidir; məs.: Bunların əqlini sərxoş eylədi (28); Hər bir iqlimdən ***bulara*** söylədi (25) və s.

Əsərin dilində ***bu*** işarə əvəzliyi hallanarkən bəzən fonetik dəyişikliyə məruz qalır, yəni b>m əvəzlənməsi baş verir. Məs.: Ya

Rəsul allah, ***muna*** bir çarə et (33); Bir dua qıl ***munun üçün***, ya Rəsul (34); Qıymışam bən ***munda*** baş ilə cana (35) və s. Bu xüsusiyyət digər abidələrin dilində, habelə dialekt və şivələrimizdə, canlı danışıq dilində geniş yayılmışdır.[16]

O, ol. Bu əvəzlik abidənin dilində əsasən, ***ol*** şəklində işlənir; Məs.: Padşah gərək ki, ***ol*** Mehriyi ala. (40); Bağban ilə ***ol*** Vəfa bilə gedər (41); Tökdü könlək içinə ***ol*** çiçəgi (41); Aldı vəzir sultana ***o*** könləgi (25) və s.

Uşbu, üşbu. Quruluşca mürəkkəb olan *(uş (üş) + bu)* bu əvəzlik poemanın dilində geniş yayılmışdır. Məs.: Vəfa aydır: ***Üşbudur*** ol canavar (19). ***Uşbudur*** ol, ey yolundan bixəbər (25); ***Uşbu*** könləkləri geyir ol huri (25) və s. Bu əvəzliyə orta yüzilliklərə aid digər ədəbi-bədii dil nümunələrimizdə də rast gəlinir; məs.: Məlik aydır: ***Uşbu*** sözin qəbul qıldım[17]; ***İşbu*** gerçək, sizlərün qulumıdur[18] və s.

Şol, şu. Bu əvəzliklər də poemanın dilində öz işləkliyi ilə seçilir. Məs.: Mindi ***şol*** dəm atına ol köy bəği (24); İrdi ***şol*** dəm ol padşah qatına (19); Baxdı gördi bir qılıc ***şunda*** durur (63) və s.

Yuxarıda qeyd etdiyimiz əvəzliklərdən başqa, əsərin dilində ***öylə, böylə, belə, eylə, bölə, həmin*** işarə əvəzlikləri də işlənmişdir. Məs.: ***Öylə*** dedi, saldı qolun boynuna (22); Bəzm alətin çəngilərilə ***böylə*** (49); ***Eylə*** nəsaq eylədi Rum sultanı (69); Səhər xalqı ***bölə*** danışdı işi (67); ***Böylə*** dedi, padşahdan çıxdı can (14); ***Eylə*** getdi, kimsə irməz qəsdinə (19); Canı verən, həm alansan sən, yəqin, Hər işə qadir ***həminsən***, sən ***həmin*** (15) və s.

Qeyri-müəyyən əvəzliklər. Bu qrupa daxil olan əvəzliklər, əsasən, aşağıdakılardan ibarətdir: ***biri, birisi, hər biri, hər birisi, kimsə, kimsənə, kimi*** və s. Məs.: Gördülər ***biri*** ər, ***biri*** övrət (53);

---

[16] Bax. Xəlilov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, s. 101; Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962, s.179; Şirəliyev M. Azərbaycan dialektologiyasınlın əsasları, 1968, s.189

[17] Qul Əli. Qisseyi-Yusif (tərtibçilər: E.Əlibəyzadə, Ə.Hüseyni), Bakı, Azərnəşr, 1995, s.51

[18] Suli Fəqih. Yusif və Züleyxa (tərtib edən: Z.T.Hacıyeva), Bakı, 1991, s. 57

Birisi endi, qalanı durudular (54); ***Biri*** dutdu, ***biri*** dögir ha anı (39); ***Hər birinin*** surəti bənzər ayə (15); ***Hər biri*** bir dürlü söz söylədilər (15); ***Hər birini*** bu iş üstə qoğıl. (14); ***Hər biris***i doğruluq eylədilər (73); ***Hər biriniz*** çəkdiniz bunca əmək (74); Çıqrışurlar yeməsün, ***kimsə*** qıyub (23); ***Kimsəyə*** layiq degil, illa sizə (24); ***Kimsənüz*** bənüm ilə heç gəlməsün (46); ***Kimsənədən*** dəxi vəfa bulmadım (16); ***Kimsənədən*** heç bir xəbər bulmadılar (40); ***Kiminə*** az, ***kiminə*** ol bol verir (12) və s.

Bunlardan başqa, poemanın dilində ***hər kimi, hər nə kim, hər nə, hər bir, heç birisi, cümlə, qamu*** və s. qeyri-müəyyən əvəzliklərinə təsadüf edilir; Məs.: Biri aydır: ***hər kim*** ola əlsiz isə (23); ***Hər bir*** iqlimdən bulara söylədi (28); ***Heç birisinin*** məcalı irmədi? (63); Şəhər qövmi ***cümlə*** ana uydular (16); Getdi ***qamusı***, Vəfa qaldı naçar (16) və s.

Təyini əvəzliklər. Poemanın dilində ***qamu, hər*** təyini əvəzliklərini müşahidə etdik. Məs.: Dört yana aradı ***qamu*** yolları (51); Oldurur ***qamu*** nəbilərdən əsül (12); ***Qamu*** bəglər dirülübən gəldilər (14); Dört yana aradı ***qamu*** yolları (51); Dedi: Bununla bitər ***hər*** dürlü iş (36) və s.

Sual əvəzlikləri. Poemanın dilində sual əvəzlikləri əşya və hadisə barədə müəyyən məlumat toplamaq üçün işlədilir, habelə sual cümlələrinin əmələ gəlməsində əsas vasitələrdən birinə çevrilir. Sual əvəzlikləri (***qancaru (xancaru), qanqı, qanı, qanda, kim, nə, necə, niyə, nə için (neçün)*** və s.) müasir Azərbaycan dilindəki eyni adlı əvəzliklərdən öz məna və vəzifəsinə görə yox, əsasən, fonetik variantlarına görə fərqlənir; məs.: Bilməyürük kim, ***xancaru*** səfər edə (18); Dayə aydır xatuna: Sən ***qancaru?*** (46); Padşah ***qanqınız*** olur biləlüm (67); Ey əcəb, ol sevgili yarım ***qanı?*** Ol bənüm yaru vəfadarım ***qanı?*** (38); Adəm oğlanı bunu ***qanda*** görür (24); ***Qanda*** getsəniz həm biz də gedəvuz (75); Soralım ***qandan*** gəlür, ***qanda*** gedir (28) və s. Bunlardan ***qanqı, qanı, qanda*** sual əvəzlikləri hazırda ***hansı, hanı, harada*** şəklində dilimizdə işlənməkdədir,

xancaru əvəzliyi isə ədəbi dildə işlənməsə də, dialekt və şivələrdə fərqli semantikada öz işləkliyini saxlamaqdadır.[19]

Bəzi sual əvəzlikləri müasir Azərbaycan dilində eynilə işlənir; məs.: Ayıtdı: ***Nə*** oldı sizin əhvalınız? Doğru deyin, ***necədir*** əhvalınız? (70); Vətənnizi ***nə için*** tərk etdiniz (70); Ayıtdı: şah, könlünüz neçün xarab? (27); ***Necə*** oldı aydayım əhvalımı (71); Eşit imdi tanrının əmri ***necə*** (66); Surəti görüb ***niyə*** ah etdiniz? (70) və s.

Bəzi sual əvəzlikləri tabeli mürəkkəb cümlənin tərkibində işlənməklə, nisbi əvəzlik funksiyasını yerinə yetirir; məs.: ***Qansılar*** ki əsrüməz isə, görüm (48); ***Qanqı*** şəhərə varur isə, durar (36); Hökm edirdi ***netə*** kim Nuşirəvan (75) və s.

ZƏRF

Zərf qrammatik mənasına görə hərəkətin tərzini, zamanını, yerini, kəmiyyətini və s. bildirən əsas nitq hissəsidir. "Mehri və Vəfa" poemasının dilində işlənən zərflər öz leksik-semantik, morfoloji və sintaktik xüsusiyyətlərinə görə müasir Azərbaycan dilindəki eyni adlı sözlərdən əsaslı şəkildə fərqlənmir. Poemanın dilində zərflərin bütün məna növləri (*tərzi-hərəkət zərfi, zaman zərfi, yer zərfi, kəmiyyət zərfi*) müşahidə edilir.

Tərzi-hərəkət zərfləri. Quruluşca tərzi-hərəkət zərflərinin hər üç növü poemanın dilində işlənir:

1. *Sadə tərzi-hərəkət zərfləri*; məs.: Gəldülər qorkulu atlar ***yegin*** (50); Yenə tez gələ mənim ilə bilə (59); Bən gedəyim anı istəyü becid (31);

2. *Düzəltmə tərzi-hərəkət zərfləri*. ***-cə, -anə, -suzın***[2] şəkilçilərinin köməyi ilə əmələ gəlir; məs.: Vəfa aydır ***türkicə*** firaqna-

---

[19] Bax. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti, Bakı, 1968, s.110; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, s.97; Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, Bakı, 1962, s.110; Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962, s.41

mə (43); İsrət edin bunda bu gün ***şahanə*** (49); ***Ansuzın*** gəldi bir ün qulağına (35); Könlümi bəndən gidərdi ***sənsüzin*** (65) və s.

3. *Mürəkkəb tərzi-hərəkət zərfləri*. Aşağıdakı yollarla düzəlir:

a) *sifətlərin təkrarı ilə*; ***Arxun-arxun*** dönübən Mehri gedər (46);

b) *sayların təkrarı ilə*; məs.: Verdi kilidlərini ***bir-bir*** açar (22);

c) *birincisi ismin çıxışlıq halında, ikincisi isə yönlük halda olan sözlərin birləşməsi ilə*; məs.: Sindı gəmi, cümləsi ***başdan-başa*** (21);

ç) *eyni sözün* ***-bə*** *bitişdiricisi ilə birləşməsi yolu ilə*; Hökmünə ram oldu dünya ***sərbəsər*** (13) və s.

Zaman zərflərinin quruluşca növləri müasir Azərbaycan dilindəki eyniadlı sözlərdən əsaslı şəkildə fərqlənmir; üç yerə bölünür:

1. *Sadə zaman zərfləri*; məs.: Bir gözəl gətürdüm, der, ***şimdi*** sana (72); ***Ertə*** oldı sapdilər bir dərəyə (50); ***Şimdi*** gəldin sən yüzimi görməyə (21); Varmaq artuq olmaya ***imdən*** bana (41) və s.

2. *Düzəltmə zaman zərfləri* ***-la[2], -da*** şəkilşiləri vasitəsilə düzəlir; məs.: ***Danla*** oldu, dayə öyündə məgər (50); Mədəd irişdi ***onda*** Xızır (21) və s.

3. *Mürəkkəb zaman zərfləri* aşağıdakı üsullarla düzəlir:

a) *Əks mənalı sözlərin birləşməsi ilə*; məs.: Səhralarda ***dün-gün*** fəryad edər (66); Mehri istər ***ertə-gecə*** biqərar (70) və s.;

b) Bu *işarə əvəzliyinin* ***gün, gecə*** *sözləri ilə birləşməsi ilə*; məs.: Həm gəzə, təfərrüc edə ol ***bu gün*** (59); ***Bu gecə*** bənim ilə olğıl bilə (60) və s.;

c) Bir *miqdar sayının* ***gün, zaman*** *sözləri ilə birləşməsi ilə*; məs.: Padşah ***bir gün*** ki sayru düşər (13); ***Bir zaman*** dünyada etdi ol güzər (13) və s.;

ç) O, bu, şol, işbu *sözlərinin* ***dəm, saat*** *sözləri ilə birləşməsi ilə*; məs.: Yağubun ağladığı getdi ***o dəm*** (47); İrdi ***şol dəm*** ol padşah qatına (29); Yavay qıldı ***şol saat*** kəndözüni (54); Əlli dəxi verəyim ***bu dəm*** sana (60); Götürəyim anı sənə ***işbu dəm*** (27) və s.

Yer zərfləri. Poemanın dilində yer zərflərinin quruluşca növləri zərfin digər növlərində olduğu qədər işlək deyil, sadə yer zərfləri ***(tışra (taşra), gerü, yukarı, ilərü, içərü, orda, irəlü, bura, bərü)*** üstünlük təşkil edir; məs.: Gəldi ***irəlü***, verdi bir altun ana (17); ***Yuxarudan*** üzün anun görsə gün (20); Sağ qapusundan gedir ***taşra*** urur (18); ***Orda*** yakunda dəxi bir köy ulu (53); Nəsnə verin, göndərin anı ***geri*** (28); San ***buraya*** məlik Süleyman gəlir (47); Qoydu küpi, Mehrə aydır: Gəl ***bərü*** (29) və s. Bəzən ***-da, -də*** şəkilçisinin ***bu*** (*mu* fonetik variantı da var) işarə əvəzliyinə artırılaraq işin icra yerini bildirməsinə də təsadüf edilir; məs.: Bir saray ***bunda*** qılın ixtiyar (64); Vəfa aydır: bizi ***munda*** kim görür (50) və s.

Q.Kazımov Azərbaycan dilində ***düzəltmə yer zərflərinin*** o qədər də inkişaf etmədiyini və müasir ədəbi dildə işlənən ***ora, bura, içəri*** kimi yer zərflərinin quruluşca düzəltmə olduğunu yazır, onların ***-ra, -əri*** şəkilçiləri vasitəsi ilə yarandığını göstərir.[20] Yuxarıdakı nümunələrdə işlənən yer zərflərinə nəzər saldıqda onlarda da ***-ra, -ərü, -karı*** şəkilçilərinin olduğunu görmək mümkündür, lakin bunlar qədim yönlük hal əlamətləri olduqları üçün ***tışra (taşra), gerü, yukarı, ilərü, içərü, bura*** kimi sözləri quruluşca düzəltmə hesab edə bilmərik.

Məsnəvinin dilində ***mürəkkəb yer zərflərinə*** az rast gəlinir; məs.: Öylə gedər, heç bakmaz ***sağa-sola*** (36).

Kəmiyyət zərfləri. Poemanın dilində işlənən kəmiyyət zərfləri ***çox, az, qatı, zərrəcə, ol qədər, şöylə, bol*** sözlərindən ibarətdir; məs.: Oldu məlul bir gecə ***çok*** ağladı (16); Ol Xızır Allaha ***çox*** qıldı niyaz (34); Bir neçə gün durmadı getdi ***qatı*** (32); ***Zərrəcə*** gəlməz gözümə təxti-tac (25); ***Ol qədər*** çıkdı cadı gögdən yana, Görünürdü cümlə bir xirmən ona (51); ***Şöylə*** rövşəndir sanasın kim, bir ay (19); Kiminə az, kiminə ol ***bol*** verür (18) və s. Bunlardan ***çox, az, qatı, zərrəcə, şöylə, bol*** sözləri quruluşca sadə, ***ol qədər*** isə quruluşca mürəkkəb kəmiyyət zərfidir.

---

[20] Kazımov Q. Müasir Azərbaycan dili, morfologiya, Bakı, 2010, s.328

FEL

Bütün türk dillərində olduğu kimi, Azərbaycan dilində öz milliliyi ilə seçilən fellər "Mehri və Vəfa" poemasının dilində də işlənmə tezliyinə görə digər nitq hissələrindən fərqlənir və quruluşca üç növə ayrılır. Bunlar aşağıdakılardır:

1. ***Sadə fellər;*** məs.: ***Satdı*** ol yüzigi iki altuna (17); ***Yudular*** padşahı ***götürdilər*** (15); Könlü məlul ***gəldi döndü*** saraya (23); Bir dərədir anda göz ***irməz*** yerə (19) və s.

2. ***Düzəltmə fellər***. Bunlar iki yerə bölünür:

a) adlardan düzələn fellər; b) fellərdən düzələn fellər.

Adlardan düzələn fellər aşağıdakı şəkilçilərin köməyi ilə yaranır:

-la, -lə. Poemanın dilində adlardan fel düzəldən bu şəkilçi geniş işləkliyə malikdir; məs.: Çün əlinə ala səni ***dişləyə*** (43); Könlünü həqq həzrətinə ***bağladı*** (16); Çəkdi bıçaq, Vəfayı ***boğazladı*** (29) və s.

-ə. Diləsə canım verürdüm mən ana (71); ***Diləyəsən*** Tanrıdan, qıla diri (33) və s.

-ət. Öz qədimliyi ilə seçilən bu leksik şəkilçi ***-la, -lə*** morfeminin qrammatik sinonimidir. Bu qədim leksik şəkilçiyə poemanın dilində yalnız bir sözün tərkibində təsadüf edilir; məs.: Çıkdı şəhrdən ***gözətdi*** dört yana (8); Siz ***gözədin***, kimsənə heç gəlməsin (46).

-lat. Uyxulatmış bəni, olmuş ol nihan (72).

-lan, -lən. ***Arlanuram*** varmağa qardaşıma (16); Sanki bir quşdur ***qanatlanmış*** uçar (64) və s.

-ər. Öz qədimliyi ilə seçilən bu şəkilçi adlardan fel əmələ gətirir və ***-lan, -lən*** şəkilçilərinin qrammatik sinonimi kimi çıxış edir; məs.: ***Əvərəyin*** baş-göz eyləyəm səni (44). "Kitabi-Dədə Qorqud" dastanlarının dilində də bu şəkilçiyə rast gəlinir. Məs.: Baba, çün məni ***evərəyim*** deirsən, mana layiq qız necə olur?[21]

---

[21] Kitabi-Dədə Qorqud (tərtib edən: S.Əlizadə), Bakı, 1988, s.85

Fellərdən düzələn fellər, əsasən, ***-ıl***[4]***, -ın***[4] ***(-n), -üş (-ş), -dır***[4]***, -ir (-gür)*** şəkilçilərinin köməyi ilə əmələ gəlir; məs: Lütflərindən ***saçılır*** müşki-əbir (47); Dodağından ***tökülür*** abi-həyat (47); İricək şəb ***pozulur*** əqdi-nahar (19); Saldı qolun boynuna ***görüşdülər*** (48); Bir-biriylə Vəfayı ***söyləşdilər*** (31); ***Sallanub*** ol sərvi-Xuraman gəlür (47); ***Görünürdü*** cümlə bir xirmən ona (51); Bir yol ***əsdirdi*** cadu, söylə ki var (52); Həm ***çalınsın*** neynü çəngi rübab (49) Şükr et kim, həqq ***irgürdi*** bu günə (60); Yaz gətürür, ***bitirür*** nemətləri (12); Biz neçə əyyam ***keçürdi*** ruzigar (13) və s.

3. ***Mürəkkəb fellər.*** Poemanın dilində mürəkkəb fellər aşağıdakı yollarla yaranır:

a) et(mək), elə(mək), qıl(maq), ol(maq) *köməkçi fellərinin digər nitq hissələrinə birləşməsi ilə*; məs.: Aşiqin başında əql ***qılmaz qərar*** (26); Hər biri bir iqlimə ***qıldı səfər*** (26); Bunların əqlini ***sərxoş eylədi*** (28); Bir zaman bu bizi ***tərk etmiş idi*** (33); Arxun-arxun yollara ***nəzər edər*** (41); Aldı zəngi qədəhi ***nuş eylədi*** (57) və s.

b) -a, -ə *qədim feli bağlama şəkilçili sözün müstəqil fellə birləşməsi ilə*; məs.: ***Çıka gəldi*** ol saat Xızır Nəbi (35); ***Çıka gəldi*** Sultanım ol bağbanı (39) və s. Mürəkkəb fellərin bu yolla yaranması bəzi dialekt və şivələrimizdə də özünü göstərir.[22]

c) *şühudi keçmiş zaman şəkilçili sözün müstəqil fellə birləşməsi ilə*; məs.: Öylə ***dedi götürdü*** ol yemişi (43); ***Bakdı gördü*** Mehri qarşudan gəlür (46). Nümunələrdə şühudi keçmiş zaman şəkilçisinin feli bağlama şəkilçisi məzmunu daşıdığı aydın görünür, bu sözlər tələffüz edilərkən aralarındakı fasilə minumuma enir. Belə struktura malik mürəkkəb fellər dialekt və şivələrimizdə, şifahi nitqdə geniş şəkildə işlənməkdədir. Bu fakt bəzi feli bağlama şəkilçilərinin zaman şəkilçilərindən törəməsi ehtimalını artırır.

Mürəkkəb fellərin bu tipinə digər ədəbi-bədii dil nümunələrimizdə də rast gəlinir.[23]

---

[22] Bax. Rüstəmov R. Azərbaycan dilinin dialekt və şivələrində fel, Bakı, 1965, s.154

[23] Bax. Xəlilov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, s.121

ç) -ıb *feli bağlama şəkilçili sözün müstəqil fellə birləşməsi ilə*; məs.: Rum elindən burda ***irib gəlmişəm*** (42); Yenə ***sunub aldı*** bir əmrud ələ (43) və s.

Poemanın dilində fellə bağlı fərqli xüsusiyyətlər (müasir Azərbaycan dili ilə müqayisədə) özünü, əsasən, *felin əmr* və *vacib şəkillərində, qəti gələcək zamanda* və *felin təsriflənməyən formalarında* göstərir.

Felin əmr şəklində müasir Azərbaycan dilindəki morfoloji əlamətlərdən fərqli xüsusiyyətə I və II şəxslərin təkində və cəmində rast gəlinir; məs.: *I şəxsin təkində:* Mehri aydır; Akça ver bən ***alayım*** (62); Verür isən, ***dua qılayım*** ana (33) və s.; *I şəxsin cəmində:* Əvvəl Allah adını yad ***edəlüm*** (12); Dəm bu dəmdir, ***yeyəlüm***, həm ***içəlüm*** (24); Vəfa aydır; Bunu da aç, ***görəyim***, Bunda dəxi töhfə nə var ***biləyim*** (22); Könlək iyəsi kimdür biz ***biləvüz***, Qanda isə, ***istəyəvuz***, ***bulavuz*** (26) və s.; *II şəxsin təkində:* Der ki, ***geygil*** bunu varıcaq şərə (34); Şükr anə dilər isə, ***vergil*** canı (42); Zinhar, əmanət, ***unutmagıl*** bəni (42); ***Bağlağıl*** sən bu sevdayə könül (25); *II şəxsin cəmində:* Vəzir aydır: ***Biliniz*** bu hikməti (15); ***Görünüz*** qapuda qərib kim durur? (43); ***Dutunuz*** vəsiyyətim ey xassü am (14) və s. Göründüyü kimi, felin əmr şəkli müasir dilimizdən fərqli olaraq, əksər hallarda I şəxsin təkində ***-ayım, -əyim,*** cəmində ***-alum, -əlim, -avuz, -əvuz,*** II şəxsin təkində ***-ğıl, -gıl,*** cəmində ***-ınız***[4] şəkilçiləri ilə əmələ gəlir ki, bunlar da hazırda arxaik şəkilçilər qisminə daxil olmuşdur.

Müasir Azərbaycan dilində ***-a***[2] şəkilçisi felin arzu şəklinin morfoloji əlamətidir. Bu şəkilçi bəzən poemanın dilində felin əmr şəklini yaratmağa xidmət edir; məs.: Yegrəgi oldur, bunu ***boğazlayam***, Qovğadan özümü ***əmin eyləyəm*** (29).

Bu şəkilçilər digər orta əsr ədəbi-bədii dil nümunələrimizdə də fəal şəkildə işlənmişdir. Məs.: Gerü ***gələvüz, deyəvüz*** qurt yedi;[24] Yusif aydur: sənə əhval ***söyləyəlüm***. Bunı ***qoyğıl***, bizlərdən ***dutğıl***

[24] Suli Fəqih. Yusif və Züleyxa, Bakı, 1991, s.39-43

imdi;[25] Bəri ***gəlgil***, başum bəxti, evüm təxti!;[26] Sözini yaxşı ***bişirgil***, Yaxşı us ilə ***düşirgil***;[27] Əyyam keçər hasilimüz yox ***nedəlüm*** biz[28] və s.

Felin vacib şəkli müasir Azərbaycan dilindəkindən fərqli olaraq, morfoloji yolla deyil, sintaktik üsulla – (***-maq²+gərək*** şəklində) düzəlir; məs.: Dedi: Yenə ***çərçilik qılmaq gərək***, İstəyübən Mehriyi ***bulmaq gərək*** (61); Yas dutaq Vəfa içün, geyim qara, Zira ***can vermək gərək*** doğrı yara (30) və s. H.Mirzəzadə qeyd edir ki, felin vacib şəklinin sintaktik forması XIX əsrin ortalarına qədər işlək olmuşdur.[29] Müasir Azərbaycan dili üçün bütövlükdə arxaik hesab edilən bu üsul hal-hazırda öz varlığını Şəki, Göyçay şivələrində qoruyub saxlamışdır.[30]

Felin zamanları müasir Azərbaycan dili müqayisədə fərqə malik deyil, yalnız qəti gələcək zaman şəkilçisində fərq görünür. Belə ki, poemanın dilində ***-isər*** şəkilçisi qəti gələcək zamanı bildirməyə xidmət edir; məs.: Dedi çünki işlədüm bən bu işi, ***Düşmən olisər*** bənə işbu kişi (28).

Felin təsriflənməyən formaları. Məsdər. Müasir Azərbaycan dilində olduğu kimi, poemanın dilində də məsdər fel kökünə və başlanğıc formasına ***-maq²*** şəkilçisini artırmaqla düzəlir. Məs.: Kim, gözüm doymaz yüzünə ***bakmağa***, Qəsd edər acnım tənimdən ***çıkmağa*** (21); Şöylə başu ***canım almaq*** qəsdinə (21) və s.

Feli bağlama. Qədim dövrlərdən formalaşmağa və sistemləşməyə başlayan feli bağlamalar "Mehri və Vəfa" poemasının dilində məna və vəzifə baxımından geniş işləkliyə malik olan zəngin bir kateqoriya kimi diqqət çəkir. Abidənin dilində feli bağlamalar aşağıdakı şəkilçilər vasitəsi ilə yaranır:

---

[25] Qul Əli. Qisseyi-Yusif. (tərtibçilər: E.Əlibəyzadə, Ə.Hüseyni), Bakı, 1995, s.130

[26] Kitabi-Dədə Qorqud. (tərtib edən: S.Əlizadə), Bakı, 1988, s.34-35

[27] Şah İsmayıl Xətayi. Seçilmiş əsərləri (tərtib edən: Ə.Səfərli), Bakı, 1988, s.321

[28] Bürhanəddin Qazi. Divan (tərtib edən: Ə.Səfərli), Bakı, 1988, s.218, 219

[29] Mirzəzadə H.Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962, s.270

[30] Bax. İslamov M. Azərbaycan dilində Nuxa dialekti, Bakı, 1968, s.158; Xəliliov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, s.147

-ıb*[4] *(-uv), -ıban*[4]*, -ıbanı*[4]**. Bir qaç akça ***çıkarub verdi ana (32); ***Avlayuv*** pınar qatına gəldilər (53); Su ***içübən*** dönəcək ol canavar (18); Hər xəzinəyi ***açuban*** girdilər (22); ***Biçibəni*** ögünə töksün otı (49) və s. ***-ıban*** feli bağlama şəkilçisi digər ədəbi-bədii dil nümunələrimizin – "Kitabi-Dədə Qorqud", Nəsimi və Xətayinin dilində də təsbit edilmişdir.[31] Müasir dövrdə bu şəkilçi öz varlığını dialekt və şivələrimizdə qoruyub saxlanmışdır.[32]

-madan. Açmadan bənim qatıma yetürün (44).

-unca. Kişi namusunu ***qoyunca***, ölsə yag (17); Ol gecə ***ertə olunca*** getdilər (53).

-ıcaq, -icək (-icəygin). Xəlq ***yatıcaq*** bağ qapusın açavuz (48); ***Dişləyicək*** sıçra dimağma (43); Mən dünyadan ***edicəygin*** güzər, Mənə ol bir yer edəsiz məqər (14).

-əcək, -əcik. Xoş olur dostlar ***irəcək*** dostuna (46); ***Görəcik*** qardaşı götürdi anı (33).

-ar-maz. Kim ki ***görər-görməzə*** urar gedər (16).

-əli. Xub camalın ***görəli***, ey nigar (191).

-a, -ə, -ı, -yü. Nə gərəkdi, ***alı*** verəyim, sana (62); ***Dönə*** gəldi ol vəzirə söylədi (25); Bən gedəyim anı ***istəyü*** becid (31); ***Çıka*** gəldi sultanım ol bağbanı (39); Qardaşım gələ ***deyü*** yola bakar (35) və s.

-urkən, irkən, -ikən. Söylər ikən gəl vəsiyyət eyləgil (14); Mən ***uyurkən*** ansuzın getmiş nigar (72); Çüftçi çüftinə ***gedirkən*** kim görür (24) və s.

Bunlardan başqa, poemanın dilində ***-ür*** şəkilçisinin ***-ıb*** feli bağlama şəkilçisi yerində işlənməsinə də təsadüf edilir; məs: Qorkumdan bir ata ***binür*** qaçaram (73).

Feli sifətlər əsərin dilində ***-dığı (-duğı, -digi, -dügi), -an*[2]***, ***-dik*** şəkilçilərinin köməyi ilə yaranır. Məs.: ***Goydügi*** şeybi-hərir, başımda tac (20); ***Dedigim*** ol kömləgin budur biri (27); Yaqubun ağladuğı getdi o dəm (47); Canı ***verən***, həm ***alansan*** sən, yəqin

---

[31] Bax. Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Bakı, 1962, s.171

[32] Bax.Rüstəmov R. Quba dialekti, Bakı, 1961, s.178; Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı, 1968, s.181

(34); ***İçdügi*** saət yıxıluban yatur (50); Surəti görüb əqli ***gedənləri*** (70) və s. ***-Dik*** şəkilçili feli bağlamanı sadəcə bir nümunədə təsbit etdik; məs.: Kimsəsimi öldü ***sevdik*** sultanın (39). Bu şəkilçi ilə düzələn feli bağlamalar "Oğuznamə"nin dilində daha işlək olmuş-dur; məs.: ***Yenmədik*** aşa dua qılınmaz; ***Toğmadıq*** oğlana ad qoma; Taş ***qopduq*** yerdə ağır olur[33] və s.

[33] Oğuznamə (tərtib edən: S.Əlizadə) Bakı, 1987, s.18; 131; 134

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

QOŞMA

Uzun tarixi inkişaf prosesinin məhsulu olan nitq hissələrindən biri də qoşmalardır. Qoşmalar tarixən müstəqil mənaya malik olan leksik vahidlər olmuş, sonrakı inkişaf prosesi nəticəsində leksik mənalarını tədricən itirərək, yeni qrammatik məna qazanmışlar.

"Mehri və Vəfa" poemasının dilində müşahidə edilən qoşmaların əksəriyyəti müasir dilimizdə dəyişikliyə uğramadan işlənir, az bir qismi isə tamamilə istifadədən qalmışdır. Təsbit etdiyimiz ***qoşmalar*** aşağıdakılardır:

Sonra. Qeyri-sabit qoşmalardan olub zaman məzmunu daşıyan bu qoşma poemanın dilində geniş işləkliyə malikdir. Məs.: Mən öləndən ***sonra*** küpü açasız (14) və s.

Qarşı. Bu qoşma yönlük dala olan sözlərə qoşularaq qarşılaşdırma, ziddiyyət, çaları yaradır; məs.: Ol surətə ***qarşı*** göynər bu canım (25).

Kimi (kibi, gibi). Bu qoşma adlıq və yiyəlik halda işlənən sözlərə qoşularaq bənzətmə və müqayisə çaları yaradır. Məs.: Gözlərimdən yaş axar ceyhun ***gibi*** (38); Dedilər, bunun ***kibi*** xub qanda var (54); Başladı od ***kimi*** bağrımı yakur (25); Hər birisi söyləşir adəm ***kibi*** (23) və s.

Dək (dəkin). Bu qoşma yönlük halda işlənən zaman məzmunlu sözlərə qoşularaq hərəkət və hadisənin zamanını bildirir. Məs.: ***Gecəyədək*** anda işrət etdilər, Getdilər ol gecə ***ertəyədəkin*** (50); Ol gecə ***ertəyədək*** əzm etdilər (57) və s.

Üçün (-çün, içün). Adlıq və yiyəlik halda işlənən sözlərə qoşularaq səbəb, məqsəd məzmunu ifadə edən bu qoşma poemanın dilində daha işləkdir; məs.: Bir dua qıl munun ***üçün***, ya Rəsul (34); Sənin ***üçün*** bil diribdi ol bəni (35); Canımı qurban ***anınçün*** verəyim (33); Vəfa ***üçün*** duturuz biz bu yası (40); Yas dutaq Vəfa ***içün***, geyim qara (30) və s.

Yana. Bu qoşma ismin çıxışlıq halında işlənən sözlərə qoşularaq istiqamət məzmunu ifadə edir. Məs.: Uş gedirsən şimdi Mehridən ***yana*** (43); Arxun-arxun qaladən ***yana*** gedər (57) və s.

-Cılayın. Müasir Azərbaycan dilində işlənməyən bu qoşma poemanın dilində *kimi* və *qədər* qoşmalarının sinonimi kimi çıxış edər; məs.: Kim ola ***ancılayın*** qardaş bizə? (31).

İlə (-la²). Qədim tarixə malik olan bu qoşma qoşulduğu sözün lüğəvi mənasından asılı olaraq birgəlik, şəriklik və s. məzmun çalarları yaradır. Məs.: Fikr ***ilə*** işlər idi hər bir işi (13); Rahətindən ***rəncilə*** ayru düşər (14); Gəl ***banüylə*** iltəyim səni öynə (35); İki yar bir-biri ***ilə*** bulaşdılar (22); Rəmz ***ilə*** necə vəsiyyət eylədüm (14) və s. Müasir dilimizdə zərf düzəldən ***-la²*** şəkilçisinin də bu qoşmadan törəndiyini tərəddüd etmədən söyləmək mümkündür.

Tək. Yokdur anın bakçası ***tək*** kimsənin (27).

-Ca. Bu şəkilçi-qoşma ***qədər*** qoşmasının sinonimi kimi işlənir; məs.: ***Munca*** zamandır, yolını gözlərəm (21).

BAĞLAYICI

"Mehri və Vəfa" poemasının dilində işlənən bağlayıcıların sintaktik funksiyasına görə iki yerə ayıra bilərik: ***1. Tabesizlik bağlayıcıları; 2. Tabelilik bağlayıcıları.***

Tabesizlik bağlayıcıları aşağıdakılardır:

a) birləşdirmə bağlayıcıları: ü, ilə (-la, -lə); məs.: Sonra görək kimin olsun ***təxtü*** tac (14); ***Xeymövü*** həm təblü aləm, rəxti-bəxt (15); Hökmü irdi ***Şərqü*** Qərbə aşikar (13); Turdı aydır: Qanı ***Mehrilə*** tayə? Qıymışam bən munda baş ***ilə*** cana (35); Çıkdı vardı altun ***ilə*** akçaya (36); ***Canü*** başım yolda fədadır bu gün (48).

b) qarşılaşdırma bağlayıcıları: ancaq, yoksa; məs.: Hər kimə uğrar isə, Mehri sorar. Eşq ***ancaq*** qəm degil xassü amə (37); Taxta keçsün, ana tapu qılalum, ***Yoksa*** düşmənlər elümüzə akar (67).

c) bölüşdürmə bağlayıcıları*: *ya, yoxsa, gərək*;** məs.: ***Ya bənim bu dərdimə dərman edin, ***Ya*** görünməyin gözümə, cümlə gedin (26); Dilərsiniz padişahlıq edəlüm, ***Yoxsa*** kəndü şəhrimizə gedəlüm (74); Ey əcəb, pərimisiz, ***yoxsa*** mələk? (58); Kim olursa erkək ***gərək, ya*** dişi, Hər kimi ki ol qapuda bulavuz, Gətürəvüz anı sultan qılavuz (68) və s.

ç) iştirak bağlayıcıları*: *həm*;** məs.: ***Həm padşah idi, ***həm*** kəy ər idi (13); Ağlar anın xubluğunu ***həm*** ögər (33); ***Həm*** ol almaya vəsiyyət eylədi (42); Yanağın qızıldurur, ***həm*** yüzün ağ (42); Akça nədir, sənə ***həm*** canlar nisar (56).

d) inkar bağlayıcıları*: *nə*;** məs.:: ***Nə qaravaş qaldı qatında, ***nə*** qul (16); Yoksa ***nə*** Mehri var bunda, ***nə*** dayə (35).

e) aydınlaşdırma bağlayıcıları*: *yəni; məs.: Almaları tökdü çiçək üstünə, ***Yəni*** dilər kim, irişə dostuna (42) və s.

Tabelilik bağlayıcıları aşağıdakılardır:

a) aydınlaşdırma bağlayıcıları*: *ki (kim); məs.: Dedi vaktdır ***ki***, irişə can-cana (45); Ver salavat ***kim***, sözün olsun əsül (12) və s. Q.Kazımovun hesablamalarına görə, ***ki*** morfoloji vahidi bağlayıcı və ədat kimi "Mehri və Vəfa" poemasının dilində 50 dəfə, "Dastani-Əhməd Hərami"nin dilində isə 56 dəfə işlənmişdir. Alimin fikrincə, bu fakt özü də təsdiq edir ki, "Dastani-Əhməd Hərami" "Mehri və Vəfa"dan sonrakı hadisədir.[34]

b) səbəb bağlayıcıları*; *zira*;** məs.: Yas dutaq Vəfa içün, geyim qara, ***Zira can vermək gərək doğrı yara (30); Məşhur idi şəhr ara rəmmal qatı, ***Zira*** hasil etmiş idi sənəti (32) və s. Müasir Azərbaycan dilində aktiv işlənmə tezliyinə malik olan səbəb məzmunlu ***çünki*** bağlayıcısına poemanın dilində iki fonetik variantda *(çün, çünki)* rast gəlinir; lakin tamamilə başqa, ***elə ki*** bağlayıcı sözü və şərt bağlayıcısı funksiyasında işlənir; məs.: ***Çün*** eşitdi Vəfa, sevindi canı (40); ***Çünki*** Mehrin sarayına gəldilər, Qapuçılar həp dururdu gördülər (41); ***Çünki*** Vəfa Mehri təfərrüc edər, Taxt ögünə düşübən əqli gedər (20) və s.

---

[34] Kazımov Q. Seçilmiş əsərləri, 10 cilddə, I c., Bakı, 2008, s. 195

c) Şərt bağlayıcıları*: *əgər, gər, çünki (çün)*;** məs.: Tışradan ***əgər olursa bir gədə (67); ***Gər*** bu könlək iyəsini bulmayasız (25); ***Gər*** mənim bu hikmətimi biləsiz (14); Ayıtdı: ***Əgər*** çağıram Vəfa dura (54); ***Çünki*** eşq gəldisə, əql eylər səfər (26); Mehri aydır: ***çün*** bəni sordun bənə (21); Mehri aydır: ***çün*** bu halı eylədin (29); Uşbu işə ***çünki*** bən basdum qədəm, Götürəyim anı sənə işbu dəm (27) və s.

ƏDAT

Azərbaycan dilində işlənən köməkçi nitq hissələrindən biri də ədatlardır. Ədatların dildəki mövqeyi çox genişdir. Poemanın dilini araşdırarkən ədatların aşağıdakı məna növlərini müşahidə etdik:

1. Qüvvətləndirici ədatlar: uş, dəxi, kim, ha, əcəb, di, ki, hələ, illa, bəs, çün, axır və s. Məs.: Biri dutdu, biri dögir ***ha*** anı (39); ***Uş*** gedirsən şimdi Mehri qatına (42); Bir qara təqyə ***dəxi*** verdi dəri (39); Ol nigar ***ki*** var idi adı Mehri idi (20); Dedi kim, ***əcəb*** görümmü mən anı (40); Kimsəyə layiq degil, ***illa*** sizə (24); ***Hələ*** sən dövlət tacını ur başına (28); Gecə olsun ***hələ*** görəlüm nedər (49); Mehri aydır: Zindana ilətin ***hələ*** (69); Bunda ***dəxi*** töhfə nə var görəyim (22); ***Bəs*** bunun xub surətinə aşiqəm (58); Bir zaman ***çün*** bunun üstünə keçir (22); Bigünaham ***axır***, məlumdur sana (60) və s.

2. Sual ədatları: məgər, mi, yəni. Məs.: ***Səndəmi*** bulmadın dərdə daru? (43); Danla oldu, dayə öyündə ***məgər***? (50); ***Yenəmi*** dirilür ata anana (31); ***Hurimisin*** ya ***mələkmi***, gülüzar (21); Misli ***məgər*** ol cahanda bulunur? (58) və s.

3. Əmr ədatları: gəl, gör, gəlin, gəliniz, di və s. Məs.: Bu qrupa daxil olan ədatlar əsasən, fel köklərindən əmələ gəlir, cümləyə *əmr, arzu, dilək, təkid* və s. məzmunu verir. Məs.: Çıkdı saray tamına, ***gör*** nə edər (51); Gəldi sərraf öginə ***gör*** kim nedər (60); ***Gəliniz*** yola könül bağlayalum (67); Dedi, bu sevdayı ***gəlin*** tərk edin (74); Ey yigit, nə kişisən, ***di*** gəl bərü (39) və s.

4. Arzu ədatları: taki, tək, barı və s. Məs.: ***Tək*** durub gəlsün yüzüni görəyim (39); ***Taki*** aşiq dedigün məşuq qıla (30); Ölməz isə, ***barı*** səfər qılsa yeg (17) və s.

5. İnkar ədatları: heç, hərgiz; məs.: Fikri ol mağaraya ***heç*** irmədi (52); Kimsəsi yok idi ***heç*** ol Sultanın (67); Sırtına ol könləgin ***heç*** yirmədi (23); Bitmiş anda, bənzəməz ***hərgiz*** bizə (23) və s.

MODAL SÖZLƏR

Dilimizdə işlənən köməkçi nitq hissələrindən başqa, müəyyən sözlər də vardır ki, onlar mənşə etibarilə əsas nitq hissələrindən əmələ gəlmişdir. Bu tipli sözlər ya bütövlükdə cümləyə, ya da cümlənin bir hissəsinə modallıq verən nitq vahidləridir. Belə sözlər ***modal sözlər*** adlanır. Poemanın dilində işlənən modal sözləri aşağıdakı məna növlərinə ayırmaq olar:

1. ***Güman və şübhə bildirənlər***: ***yəqin, deyəsən*;** məs.: Can verən, həm alansan sən, ***yəqin*** (34); ***Deyəsən***, məşuq yarı qıldı məkir (43) və s.

2. ***Nəticə bildirənlər*: *aqibət***; məs.: ***Aqibət*** irisdi Məğrib elinə (39); ***Aqibət*** bir şəhrə dəxi yetdilər (58) və s.

3. ***Bənzətmə (müqayisə) bildirənlər*: *san, sanki, sanasın*;** məs.: ***San*** buraya Məlik-Süleyman gəlür (47); ***Sanki*** yüz bin can qarışdı canına (53); Ağzi həqqədür, ***sanasın*** rəsmi sim (20); ***Sanki*** ustadı idi ol şeytanın (26) və s.

NİDA

Poemanın dilində qrammatik vəzifə daşımayan köməkçi nitq hissələrindən biri də ***nidalardır***. Abidənin dilində qorxu, ağrı, çağırış ifadə edən ***ey, ya, vay, ey vay*** nidalarını müşahidə etdik. Məs.: Dilərəm, ***ey*** Tanrının peyğəmbəri (33); Aytdı: Əhvalın necə oldı, ***ey*** Şah (62); ***Ya*** Rəsulallah, muna bir çarə et (33); Biri çıkdı, ***vay***, anın

heybəti (73); Ayıdır: ***Ey vay*** kim, işimi bilmədim (62); Dedi: ***Ey vay***, bən bunu sandım yanlış (64); Ayıdır: ***Ey vay***, yanlış etdim bu işi (66) və s. Emosionallıq bildirən ***ah*** nidasına da poemanın dilində təsadüf edilir, lakin o, fellə əlaqənərək isimləşmişdir; məs.: ***Ah*** edər, dəxi düşər, əqli gedər (69); Surəti görüb niyə ***ah*** etdiniz? (70) və s.

SUALLAR

1. “Mehri və Vəfa” poemasının dilinin öyrənilməsi hansı faktların ortaya çıxmasını mümkün edir?
2. Poemanın dilində hansı leksik şəkilçilər söz yaradıcılığı prosesində daha aktivdir?
3. Poemanın dilində hal kateqoriyası əlamətləri özünü necə göstərir?
4. Poemanın dilinə əsasən sifətin dərəcə əlamətlərini necə xarakterizə edərdiniz?
5. Poemanın dilində sayın hansı məna növləri işlənmişdir?
6. Əvəzliyin məna növlərindən hansıları müasir dillə müqayisədə daha fərqli fonetik xüsusiyyətlərə malikdir?
7. Poemanın dilində düzəltmə fellər hansı şəkilçilər vasitəsilə əmələ gəlir?
8. Poemanın dilində zərfin məna növləri müasir Azərbaycan dilindəkindən hansı xüsusiyyətlərinə görə fərqlənir?
9. Poemanın dilində işlənmiş köməkçi nitq hissələrinin müasir dildəkindən fərqini izah edin.
10. Hansı bağlayıcı və qoşmalar poemanın dilində daha aktiv işlənmə tezliyinə malikdir?
11. Poemanın dili üzərində araşdırma apardıqdan sonra onun neçənci əsrə aid olması haqqında sizdə hansı fikirlər formalaşdı?
12. Poemanın dilinin morfoloji quruluşunun hansı özəlliklərini saya bilərsiniz?
13. Poemanın dili dövrün digər yazılı mətnlərinin dilindən fərqlənirmi?
14. XI-XIV əsrlərdə yazıya alınmış hansı mətnin dili “Mehri və Vəfa” poemasının dilinə daha yaxındır?
15. Dil xüsusiyyətlərinə görə poemanın harada qələmə alındığı haqda nə demək mümkündür?

TAPŞIRIQLAR

1. Verilmiş parçada işlənmiş isim və sifətləri seçin, onlarda hansı kateqoriya əlamətlərinin olduğunu göstərin.

Bağladı qeyrət qurşaqın belinə,
Aqibət irişdi Məğrib elinə.
Nagəhan uğradı yolı bir şərə,
Gördü xəlqın geyduğı cümlə qarə.
Bağlar arasına uğradı yolı,
Gördü gəlür sultanın iki qulu.
Gördülər kim, Vəfanın geydügi aq,
Dedilər sən dutmadın neçün nəsəq?
Biri dutdu, biri dögir ha anı,
Çıka gəldi sultanm ol bağbanı.
Gördü bir oğlan yüzü bənzər ayə,
Nagəhan uğradı, gəlmiş qovğayə.
Der ki, bağışlın bu oğlanı bana,
Qəribə bənzər yazıq, sögmün ana.
Əlin aldı, bağban girdi içərü,
Ey yigit, nə kişisən, di gəl bərü?
Vəfa aydır: Kimsənəm yok qəribəm,
Şimdı gəldüm şəhrinizə, iribəm.
Bağban deyir: Sən oğul olğıl bana;
Getmə ayruq, bən ata olum sana.
Verdi bağban ana, bir cübbə qarə,
Der ki, geygil bunu varıcaq şərə.
Bir qara təqyə dəxi verdi dəri,
Der ki, şimdi gerü qayğısuz yeri.

(“Mehri və Vəfa”)

2. Verilmiş parçada əvəzlikləri göstərin, onların morfoloji xüsusiyyətlərini izah edin.

Gördü Vəfa hücrələri dört yana,
Mehri aydır: Cümlə həqq verdi bana.
Verdi kilidlərini bir-bir açar,
Bir-birinin üstünə altun saçar.
Hər xəzinəyi açuban girdilər,
Dürlü cəvahir doludur gördilər.
Illa Mehri bir qapuyı açmadı,
Turdu Vəfa ol qapıdan keçmədi.
Vəfa aydır: Bunı da aç görəyim,
Bunda dəxi töhfə nə var, biləyim.
Mehri aydır: Anda nəsnə yokdurur,
Töhfələr bu hücrələrdə çokdurur.
Dinmədi ayruq, Vəfa aydır, hələ,
Gətürrəm bir gün dəxi buni ələ.
Getdi Vəfa Mehrıylə yeyir, içir,
Bir zaman çün bunun üstinə keçir.
Vəfa bir gün Mehri gördü uyxuda,
Taxt üstündə uyumuş ol asudə.
İstər, ol qapunun kilidin bulur,
Açdı ol qapuyı, eşit nə qılur.
Gördi anın içi bir baxça imiş,
Dolu ağaclar içi dürlü yemiş.
Hər birisi söyləşür adəm kibi,
Hər birisi bir sahibqədəm kibi.
Hər biri bir dərdə dərmanəm deyub,
Çıqrışurlar yeməsün, kimsə qıyub.
Biri aydır: Varmıdır gəlsün zəlil,
Kim, anın sağlığına mənəm dəlil.
Biri aydır: Hər kim ola əlsiz isə,
Tutayidi əli yemişim yesə.
Biri aydır: Rənc əlindən kim cəfa

Çəkir isə qılayum, gəlsün Vəfa.
Biri aydır: Hər kim ol gözsiz isə,
Görəsiydi gözi, yemişim yesə.
Bir ağacda gördü üç könlək təzə,
Bitmiş anda, bənzəməz hərgiz bizə.
Birin aldı Vəfa təfərrüc edər,
Yel doqunur, könləgi əldən uçar.
Ol qədər getdi ki, Vəfa görmədi,
Sırtına ol könləgin heç yirmədi.
Könlü məlul döndü gəldi saraya,
Gördi oyanmış Mehri, bənzər aya.

("Mehri və Vəfa")

3. Verilmiş parçada işlənmiş zərf və felləri seçin, quruluş xüsusiyyətlərini və məna növünü göstərin.

Vardı könlək düşdü Məğrib elinə,
Girdi bir cüftçinin anda əlinə.
Cüftçi cüftinə gedirkən kim görür,
Hava yüzüıdə bir könlək gəlür.
Dutdu cüftçi könləgi qaldı tana,
Layiqi yokdur dedi bunun bana.
Könləgi ilətdi bir köy bəginə,
Köy bəgindən ana nəsnə dəginə.
Aldı köy bəginə verdi könləgi,
Bir qaç akça verdi ana köy bəgi.
Ol bəg aydır: Bu firiştənindürür,
Adəm oğlanı bunu qanda görür?
Mindi şol dəm atına ol köy bəgi,
Aldı verdi vəzirə ol könləgi.
Ayıtdı: Gögdən endi bu gün bizə,
Kimsəyə layiq degil, illa sizə.
Aldı vəzir, könləgi açar görür,
Dedi: Bu könlək hurilərindürür.
Hillə deməzlərmi, ol uçmaqda var,

Uşbudur ol, ey yolundan bixəbər.
Nə layiqdir barıa, bunu bən geyim?
Ilətim, əhvalı sultana deyim.
Aldı vəzir sultana o könləgi,
Der: Bunu gətirdi bir köyün bəgi.
Gördü sultan könləgi, ah eylədi,
Dönə gəldi ol vəzirə söylədi.
Deyir: bu könləgi kim verdi sana?
Tez gətür könləgin iyəsin bana.
Vəzir aydır: Bu hurilərindürür,
Yoksa adəm oğlanı qanda görür?
Sultan aydır vəzirə: Çok söyləmə,
Qarşu durub bana cavab eyləmə.
Ol padşah kim, yaratmışdır bunı,
Buna layiq vardır adəm oğlunı.
Bu surət könlümdə nəqş oldu bənim,
Ol surətə qarşı göynər bu canım.
Bir əcəb hal gəldi bənim başıma,
Eşq odu düşdü içimə, taşıma.
Başladı od kimi bağrımı yakar,
Öylə kim, tütüni başımdan çıkar.
Zərrəcə gəlməz gözümə təxti-tac,
Bir əcəb eşq okuna oldum amac.

(“Mehri və Vəfa”)

4. Qul Əlinin “Qisseyi-Yusif” poemasından verilmiş parçalarla Ümmi İsanın “Mehri və Vəfa” poemasının dilini müqayisə edin, oxşar və fərqli məqamları göstərin.

I
Ol zahid bu əhvalatı bəyan qıldı,
Həm ol zahid xalıqığa dua qıldı,
Ol Yusifi görüməgə arzıladı,
Mövlasından uzun ömür dilər imdi.

(“Qisseyi-Yusif”)

II
Ol vəqtdə bir peyğəmbər gəlmiş idi,
Kitab içrə Yusif vəsfin bilmiş idi,
Qamulara anı məlum qılmış idi,
Eşidənlər əcayibə qalur imdi.

(“Qisseyi-Yusif”)

III
Ol Yusifin qardaşları övə döndi,
Birisi bir oğlaq dutub həm öyündi,
Qanın Yusif kömləginə anın sundı,
Cümlələri ağlaşuban varur imdi.

(“Qisseyi-Yusif”)

Vəfa aydır bağbana: Ey yarə,
Uşbu xalqın geydügi neçün qarə?
Kimsəsimi öldü sevdik sultanın,
Dedi kim, yasını dutursuz siz anın.
Bağban deyir: Nagəhan bir köy bəgi,
Padşaha gətürdi bir könləgi.
Padşah görüb aşiq oldu ana,
Der: Bunun iyəsini bulun bana.
Necə kim istədilər, bulmadılar,
Kimsədən heç bir xəbər bilmədilər.
Gəldi bir gün bir cadu ol padşaha,
Der ki, anı gətürəyim bən şaha.
Der: Rum elində vardır bir nigar,
Adı Mehri, Vəfadır anınla yar.
Vardı cadu boğazladı Vəfayı,
On bir aydır çəkirüz bu cəfayı.
Gətürdi Mehriyi padşah qatına,
Heyran oldu bakdı xub suratına.
Bir yıl möhlət aldı Mehri, dutdı yas,
Ol yası dutdı təmamət amü xass.
Anı gördi şah dəxi geydi qarə,

Şöylə nəsəq oldu elə, şəhərə.
Vəfa içün duturuz biz bu yasi,
Kim ki, yası dutmasa olur asi.
Bir ay dəxi gərək kim, bir yıl ola,
Padsah gərək ki, ol Mehriyi ala.

("Mehri və Vəfa")

5. Verilmiş parçada işlənmiş zərf və felləri göstərin, morfoloji xüsusiyyətlərini izah edin.

Durdu, bağban düzdi yemiş bir şələ,
Dedi: Götür gəl bölə bənim ilə.
Göstərim sarayın Mehrinin sana,
Varmaq artuq olmaya imdən bana.
Urdu Vəfa ol şələni başına,
Bir nəzər et Vəfanın bu işinə.
Bağban ilə ol Vəfa bilə gedər,
Arxun-arxun yollara nəzər edər.
Çünki Mehrin sarayına gəldilər,
Qapuçılar həp dururdu gördülər.
Aldı qul şələyi girdi içərü,
Bağban ilə Vəfa döndülər gerü.
Gəldi bağa, keçdi bir gün bir gecə,
Vəfa bilir, kəndünin halı necə.
Ertə oldu, bağban durdu tez uru,
Vəfayı çağurur, aydır: Gəl bərü.
Mehrə ilət yenə bir şələ yemiş,
Nə durarsan sənindir, Vəfa, bu iş.
Durdu Vəfa, bağda kim, yemiş dərə,
Dərdi ol yemişi, qoydu bir yerə.
Açdı bokçadan çıxardı könləgi,
Tökdü könlək içinə ol çiçəgi.
Aydır: Ey əhli-behişt, xoşdur buyun,
Solmağa yok, zehi, lətifdir xuyun.

Çünki Mehrin xidmətinə irəsin,
Anın güz gülü yüzün çün görəsin.
Bu, bənim həsrətimi sən söyləgil,
Ayruluqdan çok şikayət eyləgil,
Eşq yolunda anın içün öldügümi,
Aqibət gerü diri olduğumı.

(“Mehri və Vəfa”)

6. “Kitabi-Dədə Qorqud” dastanlarının dilini “Mehri və Vəfa” poemasının dili ilə müqayisə edin.

7. “Mehri və Vəfa” poemasının dilini İ.Həsənoğlunun qəzəllərinin dili ilə müqayisə edin.

8. “Dastani-Əhməd Hərami” və “Mehri və Vəfa” poemalarından istənilən bir parça (20 beytdən az olmamaq şərtilə) seçib, dillərini müqayisə edin, oxşar və fərqli məqamları göstərin.

9. Suli Fəqihin “Yusif və Züleyxa” poemasının dili ilə Ümmi İsanın “Mehri və Vəfa” poemasının dili arasında fərqli xüsusiyyətləri seçdiyiniz nümunələr əsasında izah edin.

10. Qul Əlinin “Qisseyi-Yusif” əsəri ilə Ümmi İsanın “Mehri və Vəfa” poemasını qarşılaşdırın, onların dili arasında nə dərəcədə yaxınlıq olduğunu nümunələrlə əsaslandırın.

11. İ.Nəsiminin hər hansı bir qəzəlinin dilini Ümmi İsanın “Mehri və Vəfa” poemasının dili ilə müqayisə edin.

12. Qazi Bürhanəddinin tuyuğları ilə “Mehri və Vəfa” poemasının dilini müqayisə edin.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, Az. SSR EA nəşriyyatı, 1967, 270 s.
2. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, Bakı, 1962, 326 s.
3. Bürhanəddin Qazi. Divan (tərtib edən: Ə.Səfərli), Bakı, 1988
4. Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1959, 138 s.
5. Hüseynzadə M. Müasir Azərbaycan dili, (morfologiya), Bakı, Maarif, 1974, 358 s.
6. Xəlilov Ş. "Əsrarnamə"nin dili, Bakı, 1988, 186 s.
7. İsa. Mehri və Vəfa. (Tərtib edən: Aysel Şərifova), Bakı, 2005, 263 s.
8. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti, Bakı, Az. SSR EA nəşriyyatı, 1968, 274 s.
9. Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, 2003, 512 s.
10. Kazımov Q. Müasir Azərbaycan dili, Morfologiya, Bakı, "Elm və Təhsil", 2010, 400 s.
11. Kazımov Q. Seçilmiş əsərləri, 10 cilddə, I c., Bakı, "Nurlan", 2008, 560 s.
12. Kitabi-Dədə Qorqud. (tərtib edən: S.Əlizadə), Bakı, "Yazıçı", 1988, 264
13. Qul Əli. Qisseyi-Yusif (tərtibçilər: E.Əlibəyzadə, Ə.Hüseyni), Bakı, Azərnəşr, 1995, 183 s.
14. Quliyev İ. Qul Əlinin "Qisseyi-Yusif" poemasının dili, (metodik vəsait), Bakı, Mütərcim, 2011, 32 s.
15. Məmmədov V. "Dastani-Əhməd Hərami" poemasının dili və üslubu, Bakı, 2001, 132 s.
16. Mirzəzadə H. Azərbaycan dilini tarixi morfologiyası, Bakı, Azərbaycan Dövlət tədris-pedaqoji nəşriyyatı, 1962, 372 s.

17. Oğuznamə (tərtib edəni: S.Əlizadə), Bakı, “Yazıçı”, 1987, 223 s.
18. Rüstəmov R. Azərbaycan dilinin dialekt və şivələrində fel, Bakı, Az. SSR EA nəşriyyatı, 1965, 320 s.
19. Rüstəmov R. Quba dialekti, Bakı, Az. SSR EA nəşriyyatı, 1961, 281 s.
20. Suli Fəqih. Yusif və Züleyxa (tərtib edən: Z.T.Hacıyeva), Bakı, 1991, 180 s.
21. Şah İsmayıl Xətayi. Seçilmiş əsərləri (tərtib edən: Ə.Səfərli), Bakı, 1988, 384 s.
22. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı, Azərtədrisnəşr, 1968, 423 s.
23. Şirəliyev M. Bakı dialekti, II nəşr, Bakı, 1957, 226 s.

MÜNDƏRİCAT

İlkin Quliyev
Nizami Bağırov

Ümmi İsanın "Mehri və Vəfa" poemasının dili

(metodik vəsait)

Çapa imzalanıb: 05.01.2012.
Format: 84x108 1/32. Qarnitur: Times.
Həcmi: 10, 5 ç.v. Tiraj: 500. Sifariş № 01.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru